

# Qabaqcıllıq əzmi

**Salyan Rayon Mədəniyyət və Turizm Şöbəsinin tabeliyində 112 müəssisə - kitabxana, muzey, teatr, mədəniyyət evi və klublar fəaliyyət göstərir.**

Amma etiraf etməliyik ki, Qulu Əsgərov adına Uşaq Musiqi Məktəbi onların hamısından fərqlənir, işinin yüksək səviyyədə təşkilinə görə daim diqqət çəkir. Həmsöhbətimiz bu qabaqcıl təhsil müəssisəsinin rəhbəri Paşa Nağıyevdir.

- Salyan Rayon Uşaq İncəsənət məktəbi 1961-ci ildən musiqi məktəbi kimi fəaliyyət göstərir. İndiyədək məktəbimizi yüzlərlə şagird bitirmişdir. Məzunlarımızın çoxu ali və orta ixtisas təhsil müəssisələrini bitirib respublikanın müxtəlif bölgələrində fəaliyyət göstərir. Hazırda məktəbimizin məzunlarından 50 nəfəri respublikanın ali və orta ixtisas müəssisələrində təhsillərini davam etdirir.

1991-ci ildə Mədəniyyət Nazirliyinin qərarı ilə musiqi məktəbinə Qulu Əsgərovun adı verilmiş və incəsənət məktəbinə çevrilmişdir. Həmin dövrdən başlayaraq məktəbimizdə dərslərin keçirilməsində, tədris işlərinin aparılmasında əsaslı dönüş yaranmışdır. Məktəbimiz respublika üzrə keçirilmiş müsabiqələrdə fəal iştirak etmişdir.

2001-2005-ci illərdə Azərbaycan respublikasının Gənclər İdman və Turizm nazirliyinin uşaq folklor müsabiqələrində xanəndələr Əmrahov Elnur İlqar oğlu, Sadıqova Gülnar Tərlan qızı, Səfərov Orxan Səfər oğlu, Salahov Roman İlqar oğlu müvəffəqiyyətlə çıxış etmiş və fəxri fərmanlarla təltif olunmuşlar.

2002-2007-ci illərdə məktəbin xor kollektivi respublika üzrə keçirilən xor kollektivlərinə baxış müsabiqədə eyni uğura nail olmuşdur.

2006-2007-ci tədris ilində Bakı şəhərində simli alətlər üzrə keçirilən müsabiqədə şagirdlərdən Tural Məmmədzadə və Cəlil Cəlilov fəal iştirak etmiş və fəxri fərmanla dəyərləndirilmişdir.

2001-ci ildə məktəbin 40 illik yubileyi keçirilmiş, burada mədəniyyət və turizm nazirinin müavini Sevda xanım Məmmədəliyeva, respublika musiqi təhsili üzrə metodiki kabinetin müdiri Səid Hacıyev, rayon icra hakimiyyətinin başçısı iştirak etmişlər. Yubileylə əlaqədar olaraq 10 nəfər müəllim nazirliyin pul mükafatı, qalan müəllim kollektivi isə nazirliyin və icra hakimiyyəti başçısının fəxri fərmanı ilə təltif olunmuşlar.

2006-cı ildə məktəbin 45 illik yubileyi keçirilmişdir.Yubileydə mədəniyyət və turizm şöbəsinin müdiri, rayon icra hakimiyyətinin nümayəndələri iştirak etmişlər. Yubileylə əlaqədar olaraq müəllim heyətinə fəxri fərmanlar verilmişdir.

2006-cı il noyabr ayının 16-da Mədəniyyət və turizm naziri cənab Əbülfəs Qarayev rayonda keçirilən müşavirədən sonra Q.Əsgərov adına İncəsənət məktəbi ilə tanış olmuş və kollektivlə görüşmüşdür.

2008-ci il tarixdə respublikanın xalq artisti İlhamə Quliyeva prezident seçkiləri ərəfəsində Salyan rayonunda keçirilən konsert proqramında iştirak etmiş və Salyan rayon Q.Əsgərov adına İncəsənət məktəbinin kollektivi ilə görüşmüşdür.

Heydər Əliyevin anadan olmasının 85 illiyinə həsr edilmiş "İstedadlar sorağı" altında müsabiqə keçirilmiş və qaliblərin Salyan Rayon Mədəniyyət evində hesabat konserti təşkil olunmuşdur. Bir neçə şagird İsmayıl Həsənov, Bəylər Qədirov, Rəşad Vəliyev, Balaş Zamanov, Roman Səfərov Rayon İcra Hakimiyyətinin fəxri fərmanları ilə təltif olunmuşlar.

2008-ci tədris ilinin may ayında Astara rayonunda keçirilən uşaq muğam ifaçılarının IV respublika müsabiqəsində iştirak edən şagirdlərimiz İsmayıl Həsənov, Rəşad Vəliyev Astara Rayon Mədəniyyət və Turizm Şöbəsinin fəxri fərmanları ilə təltif edilmişlər. 2007-2008-ci tədris ilində Q.Qarayevin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş "Gənc musiqiçilər təhlil və ifa edir" elmi-ifaçılıq müsabiqəsində şagirdimiz Məlikova Həmidə İlqar qızı iştirak etmiş və fortepiano nominasiyası üzrə şəhadətnamə ilə təltif olunmuşdur.

2007-2008-ci tədris ilində Bülbül adına orta ixtisas musiqi məktəbinin müəllim və tələbə heyəti məktəbimizdə tədbir keçirmiş, burada məktəbin fortepiano ixtisası üzrə 7-ci sinif şagirdi Famil Zülfüqarov və 3-cü sinif şagirdi Ceyhun Əzizovun çıxışları qonaqlar tərəfindən rəğbətlə qarşılanmışdır.

Eyni zamanda Azərbaycan Dövlət Musiqi Akademiyasının müəllim və tələbələrdən ibarət kollektivi milli musiqimizin təbliği və geniş yayılması məqsədi ilə məktəbimizdə konsert proqramı ilə çıxış etmişlər. İş planına uyğun olaraq belə tədbirlərin ardıcıl surətdə keçirilməsi nəzərdə tutulmuşdur.

18 dekabr 2008-ci il tarixdə görkəmli bəstəkar, teatrşünas, xanəndə Qulu Əsgərovun anadan olmasının 80 illik yubileyi yüksək səviyyədə keçirilmişdir. Tədbirdə mədəniyyət və turizm şöbəsinin müdiri, rayondakı "Qələbə" qəzetinin əməkdaşları və icra hakimiyyətinin nümayəndələri yaxından iştirak etmişdir.

Mədəniyyət və turizm şöbəsi tərəfindən 2008-ci il dekabr ayının 20-də təşkil edilmiş rayon mərkəzi kitabxanasında, rayonda və məktəbdə keçirilən tədbirlərdə fərqlənən məktəbin iki müəllimi, fortepiano ixtisası üzrə Zöhrabova Aynurə Ədalət qızı və xalq çalğı alətləri şöbəsinin müdiri İbrahimov Əlibəy Adil oğlu rayon mədəniyyət və turizm şöbəsi tərəfindən diplomla təltif edilmişlər.

Məktəbimizdə 2003-cü ildən saz şöbəsi də fəaliyyət göstərir. Keçən tədris ilində 1 nəfər şagirdimiz saz şöbəsini bitirmişdir. Hal-hazırda 1 nəfər şagird saz şöbəsində təhsil alır.

Hal-hazırda Salyan rayon Qulu Əsgərov adına İncəsənət məktəbində fortepiano, skripka, tar, kamança, saz, qarmon, nağara, təsviri incəsənət ixtisası üzrə şöbələr fəaliyyət göstərir. Keçən tədris illərindən fərqli olaraq göstərilən ixtisaslar üzrə həmin şöbələrdə 455 şagird təhsil alır. Fortepiano üzrə 329, skripka üzrə 20 nəfər, tar 28, kamança üzrə 14, qarmon 34, nağara 12, xanəndəlik üzrə 7, saz üzrə 1, təsviri incəsət üzrə 10, şagirdin təlim tərbiyə işləri ilə 81 müəllim məşğul olur. Bu müəllimlərin hamısı öz yetirmələrimizdir, 81 müəllimin 2 nəfəri ali ixtisas təhsilli, 3 nəfəri ali təhsilli, 68 nəfəri orta ixtisas təhsilli, 9 nəfəri isə orta təhsillidir. Bir nəfər skripka müəllimi Ü.Hacıbəyov adına musiqi akademiyasında təhsilini davam etdirir.

Məktəbdə Azərbaycan xalq çalğı alətləri orkestri, xor kollektivi, "Kür" qrupu və digər qruplar da fəaliyyət göstərirlər. Bu il 20 nəfərə yaxın məzunumuz orta ixtisas musiqi texnikumlarında təhsillərini davam etdirir.

Keçən tədris illərində olduğu kimi 2008-2009-cu tədris ilinin əvvəlində, yəni sentyabr ayında məktəbin illik iş planı tərtib edilib təsdiq olunmuş və bu plana əsasən məktəbin bütün tədbirləri, konsertləri, tarixi əlamətdar günlərlə bağlı edilmiş yığıncaqlar vaxtlı vaxtında keçirilmiş və yerli "Qələbə" qəzetində bu barədə məqalələr dərc edilmişdir.

Məktəbimizin şagird və müəllim kollektivi "Uşaq ili" ilə əlaqədar olaraq, rayon mədəniyyət





evində konsert proqramı ilə çıxış etmişdir. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin xətti ilə Respublika üzrə keçirilən bütün müsabiqələrdə məktəbimizin şagirdləri müvəffəqiyyətlə iştirak etmişlər. Bunun nəticəsidir ki, məktəbimizin 55 nəfərlik xor kollektivinin Şirvan şəhərində keçirilən VI Respublika müsabiqəsində çıxışı maraqla qarşılanmış və Mədəniyyət və turizm nazirinin fəxri fərmanı ilə qiymətləndirilmişdir.

Mingəçevir şəhərində keçirilən simli alətlər üzrə müsabiqədə şagirdimiz Novruzov Kamran Mahmud oğlu və Yevlax rayonunda keçirilmiş zərb alətləri üzrə baxış müsabiqəsində şagirdimiz Mehdiyev Vahid Yəhya oğlu fəxri fərmanla təltif edilmişlər. Bakı şəhərində keçirilən gənc pianoçuların müsabiqəsində: Abdullazadə Elməddin Həsən oğlu, Zülfüqarov Famil Tale oğlu və Əzizov Ceyhun Rafael oğlu müvəffəqiyyətlə çıxış etmişdir.

Abdullazadə Elməddin Həsən oğlu, Zülfüqarov Famil Tale oğlu I turda qalib gələrək Mədəniyyət və Turizm nazirinin fəxri fərmanları ilə təltif edilmişlər. Respublika üzrə keçirilən gənc pianoçuların müsabiqəsində I yaş qrupu üzrə qalib olmuş Əzizov Ceyhun Rafael oğlu III-cü yerə layiq görülərək diplomla təltif olunmuş və M.Maqomayev adına filarmoniyada keçirilən yekun konsertində müvəffəqiyyətli çıxışına görə pul mükafatına layiq görülmüşdür.

Eyni zamanda məktəbin fortepiano müəllimi İsmayılova Sevindik Əvəzağa qızı müsabiqələrə fəal şagirdlər hazırladığına görə, Mədəniyyət və Turizm Nazirliyi tərəfindən fəxri fərmanla təltif olunmuşdur.

Məktəbdə fəaliyyət göstərən şöbələrin hər birinin hesabat konserti verilmişdir.

Məktəbin iş planına uyğun olaraq ilboyu keçirilən tədbirlərdə, tarixi əlamətdar günlərdə, məktəbdə fəaliyyət göstərən təsviri incəsənət şöbəsi şagirdlərinin əl işlərindən ibarət sərgilər təşkil edilmişdir.

2008-2009-cu tədris ilində "Şərq, Qərb dünyası uşaqların gözü ilə" mövzusunda rayon rəsm qalereyasında təsviri incəsənət şöbəsi şagirdlərinin əl işlərindən ibarət sərgi təşkil edilmiş, Gözəlova Nilufər Füzuli qızı, Abasova Aynur Mahir qızı, Qafarova Zeynəb Sail qızı, Nəzərov Emil Ceyhun oğlu, Abdullayev Elçin Zahid oğlunun nümunəvi əl işləri Bakı şəhər elmi-metodiki mərkəzə göndərilmişdir. Hal-hazırda bir nəfər şagirdimiz Məmmədov Coşğun Məzahir oğlu Azərbaycan Dövlət Rəssamlıq Akademiyasını bitirib rayonda mədəniyyət sahəsində fəaliyyət göstərir.

2008-2009-cu tədris ilinin yekunu ilə əlaqədar olaraq Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi Elm və təhsil üzrə tədris metodiki kabinetinin baş məsləhətçisi Səid Hacıyev məktəbimizə gəlmiş, tədris işləri, imtahanların keçirilməsi, jurnal-fərdi vərəqələrin aparılmasına dair tövsiyələr vermiş və müsabiqə qaliblərinə Mədəniyyət və Turizm Nazirliyinin fəxri fərmanlarını təqdim etmişdir.

Salyan rayon Qulu Əsgərov adına incəsənət məktəbi müasir tələbata uyğun binada yerləşir, yardımçı sinif otaqları ilə birlikdə məktəbin 45 sinif otağı var. Bu otaqların hamısı tədris işləri üçün yararlıdır. Məktəbdə 27 fortepiano, 2 royal, 1 tar, 1 kamança, 5 qarmon, 2 nağara musiqi alətləri var.

Rayon icra hakimiyyətinin köməkliyi ilə məktəbimiz əsaslı təmir olunur. Qapı-pəncərələr, məktəbin birinci mərtəbəsinin dəhlizi müasir tələbata uyğun təmir olunmuşdur. Valideynlərin çoxsaylı müraciətlərini nəzərə alaraq məktəbin maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə 7 illik təhsildən 11 illik təhsil sisteminə keçirilməsi məqsədəuyğundur.

● **Paşa NAĞIYEV,**
***məktəbin direktoru***